**Qarabağın payızı çox gözəl olur, bu ilahi cazibə Füzuli torpağında daha al-əlvan görünür, dağı, dərəni, düzləri bənzərsiz rəng çaları bürüyür. Ağacların budaqlarından qopan yarpaqlar torpağın üstünə xalı kimi sərilir, təbiət ruhu təzələyir. Ana təbiətin bineyi-qədimdən yaratdığı gözəlliklə yanaşı, insan əllərinin hərarəti ilə ərsəyə gətirilən gözəllik Füzulidə bir-birinə qovuşur. Bu payız füzulililərə daha bir sevinc gətirib. Dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə hər il oktyabrın 17-si Füzuli şəhəri günü kimi bayram edilir. Şəhər günü həm də qürur, fəxr, qayıdış, doğma yurd sevincini, parlaq qələbəni ifadə edir.**

# Modern quruculuq, ləyaqətli qayıdış

Üç il bundan əvvəl işğalçıların sükunətə, xarabalığa çevirdikləri yurd yerlərinə indi şərəfli və ləyaqətli həyat qayıdır, Füzuli şəhəri yeni görkəmdə, modern üslubda tikilir və xoşbəxt gələcəyə addımlayır. Hələ bu yerlərdən ağır müharibənin barıt qoxusu çəkilməyib, düşmənin qəsdən basdırdığı minalar təhlükə saçır, buna baxmayaraq, mərmi, güllə səslərini mala, çəkic səsləri, qurub yaratmaq həvəsi əvəz edir, düşmənin vurduğu yaralar sağalır. Üç il bundan əvvəl oktyabr ayının ortalarında Füzuli istiqamətində qanlı döyüşlər gedirdi, Azərbaycanın ər oğulları torpaqlarımızı işğaldan azad etmək üçün hünər göstərirdilər, havadan qan, barıt qoxusu gəlirdi, güllələr, mərmilər göydə cövlan edirdi, buna baxmayaraq, ərənlərimiz addım-addım, qarış-qarış irəliləyir, düşmənin başını əzir, sözün əsl mənasında, qəhrəmanlıq dastanı yazırdılar. Üç ildir ki, xalqımız şəhidlərin, qazilərin qəhrəmanlığı ilə haqlı olaraq qürur, iftixar və doğma torpağa qayıdış təntənəsini yaşayır. 2020-ci ilin payızında Azərbaycan döyüş meydanında işğalçı Ermənistana və onun havadarlarına, ermənipərəst qüvvələrə qarşı gərgin mübarizə apardı. Halbuki, münaqişəni dondurmağa çalışan ATƏT-in keçmiş Minsk qrupu, bəzi dövlətlər, dünya erməni lobbisi elə güman edirdilər ki, daha Azərbaycan heç vaxt torpaqlarını azad edə bilməyəcək. Ermənilər bu "xəyallar"la Qarabağda, Şərqi Zəngəzurda talançılıqla məşğul olur, təbii sərvətlərimizi qarət edir, tarixi və dini abidələrimizi dağıdır, burada qanunsuz məskunlaşma aparırdılar. Havadarlarına arxalanan haylar üç il bundan əvvəl yeni ərazilər işğal etmək həvəsinə düşərək keçmiş cəbhə xəttində elan edilmiş atəşkəsi tez-tez pozur, təmas xəttində yaşayan azərbaycanlılara qarşı terror törədir, dinc insanları və uşaqları qətlə yetirirdi. Münaqişənin həlli ilə məşğul olan dövlətlər Ermənistanın bu həyasızlığına, vəhşiliyinə açıq şəkildə göz yumurdular. Azərbaycan xalqının tarixinə şəhid qanıyla yazılan 27 sentyabr 2020-ci il həm də bizi qələbəyə aparan yolun başlanğıcı oldu. Ermənistan ordusunu darmadağın edən Azərbaycan Silahlı Qüvvələrinin bölmələri 2020-ci ilin payızında 44 gün davam edən savaşda tarixi qələbə, şanlı zəfər qazandı. Həm də beynəlxalq təşkilatların, o cümlədən BMT-nin 27 il kağız üzərində qalan qətnamələrini Azərbaycan savaş meydanında yerinə yetirdi, gizlədilən haqqı və ədaləti bərpa etdi, şərəfimizi ucaltdı.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsində silahlı qüvvələrimizin ilk uğurlu hərbi əməliyyatları məhz Füzuli rayonundan başlayıb. Müharibənin ilk günündə - 2020-ci il sentyabrın 27-də Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri və Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri azad edildi. Düşmən üzərində əldə edilən qələbə cəbhədə bütün vəziyyəti ordu bölmələrimizin xeyrinə dəyişdi, böyük ruh yüksəkliyi yaratdı. Qəhrəman ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyat nəticəsində Vətən müharibəsinin iyirminci günündə, 2020-ci il oktyabrın 17-də Füzuli şəhəri daxil olmaqla rayonun 62 yaşayış məntəqəsi işğaldan azad edildi. 44 günlük müharibədə ən ağır, ən şiddətli döyüşlər Füzuli istiqamətində aparılıb. Azərbaycanın Vətən müharibəsində düşmən üzərində qalib gəlməsindən 6 gün sonra 2020-ci il noyabrın 16-da Prezident, Qalib Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilən Füzuli rayonuna səfər ediblər. Qalib Ali Baş Komandan İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırıb. Bu həlledici və qürurverici anlar Azərbaycan tarixinin ən şərəfli və möhtəşəm səhifəsidir.

Azıx mağarasında aparılmış qazıntılar zamanı müəyyən olunub ki, Füzuli torpağı ən qədim insanların yaşayış məskəni olub, bura 1827-ci ilə qədər Qarabulaq adlandırılıb. Həmin il çar rus ordusunun polkovniki Pavel Karyaginin şərəfinə Karyagin adlandırılıb və ona şəhər statusu verilib. 1959-cu ilin aprel ayında dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 400 illik yubileyi münasibətilə şəhərə onun adı verilib. Füzuli şəhəri Bakıdan 310 km cənub-qərbdə yerləşir. Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərində Araz çayına qədər maili düzənlikdə yerləşən Füzuli, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Rayonun ərazisi 1386 kvadratkilometr, əhalisi isə təxminən 144 min nəfərdir. Rayonun ərazisindən Quruçay, Köndələnçay, Qozluçay və Çərəkən çayları keçir. Burada çoxlu tarixi abidələr mövcuddur. Qədim mədəniyyət və memarlıq abidələri - mağara və kurqanlar, çoxlu sayda türbə, qəbirüstü abidələr, at, qoç fiqurları ilə zəngindir. Təəssüf ki, bu nadir abidələrin bir çoxu, eləcə də Azıx mağarası erməni vandalizminin qurbanına çevrilib. Bu vəhşiliyə baxmayaraq, həmin abidələrin qalıqları durur. Azərbaycan Prezidenti, Qalib Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilən ərazilərə mütəmadi olaraq səfər edir, işğal dövründə Ermənistanın bu torpaqlarda törətdiyi vəhşiliyi, vandallığı, cinayətləri və azərbaycanlılara qarşı törətdikləri qəddarlığı təkzibedilməz faktlarla dünyanın, beynəlxalq təşkilatların və erməni havadarlarının diqqətinə çatdırır və işğalçı, vəhşi, faşist erməni mahiyyətinin iç üzünü ifşa edir.

Son üç il ərzində dövlətimizin başçısı və Birinci vitse-prezident Mehriban xanım Əliyeva 16 dəfə Füzuli rayonuna səfər edərək ən iri infrastruktur layihələrinin təməlini qoyub, bir çoxunun isə açılış mərasimində iştirak ediblər. Həmin səfərlərin qısa xronologiyasına nəzər salaq. 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli şəhərində olublar. 2021-ci ilin yanvar ayının 14-də Füzuli-Şuşa yolunun və hava limanının təməlləri qoyulub. Həmin il fevralın 14-də dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna yenidən səfər ediblər. Martın 16-da (2021-ci il) Füzuliyə səfər edən dövlət başçısı bir sıra infrastruktur layihələrinin təməlini qoyub. 2021-ci il iyunun 14-də Prezident və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar. Dövlət başçısı Füzuli rayonundakı Aşağı Köndələnçay Su Anbarında olub və təmir-bərpa işləri ilə bağlı tövsiyə və tapşırıqlarını verib. Sonra Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və Zəfər yolunun tikintisinə baxış keçirilib, "Füzuli" yarımstansiyasının açılışı olub, Zəfər yolu üzərindəki körpünün tikintisinə baş çəkiblər, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa olunacaq tunelin təməli qoyulub. Bir ay sonra avqustun 29-da Əhmədbəyli-Füzuli-Şuşa və Zəfər yolunda, həmçinin Füzuli Beynəlxalq Hava Limanında son tamamlama işlərinin gedişi ilə tanış olublar. 2021-ci il oktyabrın 17-də Füzuli-Ağdam avtomobil yolunun təməli qoyulub. Həmin gün Prezidentimizə Füzuli rayonunun Dövlətyarlı kəndində "Ağıllı kənd" layihəsi təqdim edilib, Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanışlıq olub, Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak edən Prezident xanımı ilə birlikdə Füzulidə ya...

Mərkəzi Şəhər Parkında ağac əkibl... gün Prezident İlham Əliyev və birin... Mehriban Əliyeva Füzuli ictimaiyyət... mayəndələri ilə görüşüb, memorial k... sin və şəhərin bərpasının təməl daşın... lar. On bir gün sonra, oktyabrın 26-da... Beynəlxalq Hava Limanının açılış m... keçirilib. Prezident İlham Əliyev və... Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.



2022-ci il aprelin 21-də dövlət başçısı Köndələnçay Su Anbarında aparılan təmir-bərpa işləri, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin tikintisi ilə tanış olub, Füzuli şəhərində Peşə Liseyinin, 180 çarpayılıq xəstəxananın təməlini qoyub. Həmin il mayın 26-da Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisinin gedişi ilə tanışlıq olub. 2022-ci il sentyabrın 27-də Füzuli rayonuna səfər edən dövlətimizin başçısı və birinci xanım Anım Günü ilə əlaqədar ilk şəhidlər verdiyimiz yerdə Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Noyabrın 7-də Qalib Ali Baş Komandan Füzuli rayonunda Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub. 2023-cü il mayın 5-də dövlətimizin başçısının iştirakı ilə Füzuli rayonunun Pirəhmədli kəndinin təməli qoyulub, Füzuli-Hadrut avtomobil yolunun açılışı olub. Rayonun Dədəli kəndində birinci mərhələdə 327 evin tikilməsi üçün təməl atılıb. MİDA tərəfindən Füzuli yaşayış kompleksində görülən işlərlə tanış olan Prezidentimiz Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlini qoyub, "Azərişıq" ASC-nin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışını edib. Özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa olunan məktəb binasının tikintisinə baş çəkərək Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlqoyma mərasimində iştirak edib. İyulun 20-də Prezident Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub. Bir ay sonra, avqustun 23-də dövlət başçısı Azərbaycanda dövlət səfərində olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə birlikdə Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışını edib. Sonra Azərbaycan ilə Özbəkistan prezidentləri və xanımları Füzuli şəhərində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər və Füzulinin Baş planı ilə tanış olublar.

Sakin Fariz Əliyev söyləyib ki, Füzulidən məcburi köçkün düşəndə altı yaşım var idi, o zamanlar mənim uşaqlıq illərimə təsadüf edib. Bu gün isə böyük qürur hissilə Füzuliyə qayıdıram. Başqa bir sakin Seymur Hüseynov bildirir ki, uzun illər ayrı qaldığımız doğma yurdumuza qayıdırıq. Sevincliyəm, eyni zamanda fərqli hissləri yaşayıram. Artıq məcburi köçkünlük həyatımız sona çatır. Bizə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarıq, tikintidə əməyi olanlara təşəkkür edirik. Qeyd edək ki, Füzuli şəhərinə qayıdan ailələri Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar. Nə xoş ki, geri qayıdan füzulili ailələr Füzuli şəhər gününü öz evlərində, isti ocaqlarında, ata-baba yurdlarında qürurla, sevinclə, fərəhlə qeyd edirlər.




**Salman ALIOĞLU,
"Respublika".**